# Türkoloq alim Arif Acaloğlu vəfat edib



Türkoloq alim, İstanbul Mərmərə Universtitetinin müəllimi Arif Acaloğlu Bakıda yol qəzasında həlak olub.

1956-cı ildə Borçalıda anadan olmuş Arif Acaloğlu BDU filologiya fakültəsini bitirib. 1982-ci ildə AMEA Ədəbiyyat İnstitutunun Mifologiya şöbəsində elmi işçi olub. 1983-1986-cı illərdə Estoniyanın Tartu Universitetində semiologiya üzrə doktorantura təhsili alıb. 1987-1990-cı illərdə folklor kafedrasında ekspert, 1990-cı ildə Bakı Dövlət Universitetində müəllim olub.

Arif Acaloğlu 1992-1993-cü illərdə Azərbaycan Prezidentinin müşaviri vəzifəsində çalışıb. 1993-cü ilin ortalarında Türkiyəyə köçüb. Uzun müddət Bilgi Universiteti, Yeditepe Universitetində müəllim işləyib. Akademik və siyasi araşdırmalar, bir çox televiziya proqramları, müsahibələr və populyar məqalələr müəllifidir. 30-dan çox kitabı tərcümə edib.

**Allah rəhmət eləsin!**

---

Acalın - biz onu belə çağırırdıq - ömrü də, yaradıcılıq yolu da mənimçün müdam mifik duman içində olub. Kim bilir, bəlkə də Arif elmə o illər biz dostlara adı da özü kimi çox sirli, cazibəli görünən mifoloq kimi başlamışdı, ona görə? Amma görünən bu ki, o duman əlli ildir səngimək bilmir. Bundan sonrası da Allahın işi. Nə biləsən, bəlkə də, hər şey indi başlanır? Yoxsa belə də son olar? Ayın-şayın getdiyin yerdə bir şeytan arabası səni özüylə götürüb apara ki, belə qonaq olmur, gedək, yenidən gələrsən, narahat olma, hər gedənin bir qayıtmağı var: anı, kitab, yazı-pozu, söz-söhbət ilə...

Dağıl, a dünya! Bu, duman deyil, nədi? Etibarın budursa, lənət sənə! Bu cür gedişin o cür qayıtmaq qaydası varsa da qəhr olasan!

Son gedənimiz sən oldun, üzünü son kərə 78-də gördüyüm oğlan! Bizlərdən Abbas əmiyə (Acalov), Həsənə (Batıyev), Arifə (Əmrahoğlu), Sabirə (Bəşirov), Nadirə (Məmmədov), Kamrana (Əliyev), Arifə (Rəhimoğlu), Məmmədəliyə (Qıpçaq), Məhəmmədə (Məmmədov) salam olsun. Oralar hamının gedəcəyi, buralarsa duracaq yer deyil, qardaş! Ol səbəb gedəni qalanından çox dünya! Hamı səfər üstə, o yolun yolçusu. Geci-tezi var. Bir, necə gedəcəyimiz qaranlıq. Duman içrə o.



Eyyy, Acalı əcələ tay tutan oğlan!.. Deməyə sözmü qalıb? Sən arif adamsan...

Nur içində uyu!

**ƏLABBAS**

---



Onu uzaqdan sevib, sayqı duymuşdum öncəliklə. Sonra üç ilginc və unudulmaz görüşümüz oldu Arif Acaloğlu ilə. İlk görüşümüz ulu ozan sənətimizə bağlandı - şair Məmməd İlqarın ocağında sazla sözün vəhdətindən danışdıq gecəni səhər edincəyədək. İkinci dəfə irfan ocağına sığınıb, ortaq və əvəzsiz dostumuz Mir Sədi Mirlər ilə birlikdə türk törəsinin yörəsində pərvanə olduq. Üçüncü dəfə onun çevirməsində Əli Kərimin kitabının Türkiyə türkcəsində nəşr olunması vəsilə oldu görüşümüzə.

Sadəcə adamın söhbətindən doymaq olmurdu. O, parlaq bir Türk aydını və bilgini, türkologiya elmini uluslararası çapda ləyaqətlə təmsil edən görkəmli alim, sonucda elm yolunda şəhid olan bir Azərbaycan oğlu olaraq tərk etdi bizləri.

Çox üzgünəm bu itkidən.

Məqamın behişt olsun, əziz dost!

Sən heç zaman unudulmayacaqsan.

**İbrahim İLYASLI**